20 aprel / 2021

# Şəhidlik elə bir zirvədir ki...



**"Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin, əksinə, onlar Allah dərgahında diridirlər, lakin siz bunu dərk etmirsiniz". "Bəqərə" surəsində deyilən bu fikirə tarix boyu inanan millətləri zəfərdən-zəfərə aparan səbəb də, Vətənə xidmət etmək və şəhid olmaq arzusu olmuşdur. Şəhidlər canı, qanı ilə torpağı qorumaq üçün hər zaman döyüşə atılmışlar. Belə şəhid oğullardan biri də Əli Heydərovdur. O, 9 fevral 2002-ci ildə Sədərək rayonunun Sədərək kəndində dünyaya göz açıb.**

Qeyd edək ki, Sədərək rayonu Birinci Qarabağ müharibəsində 109, 44 günlük Vətən müharibəsində isə 4 şəhid verib.

Bu şəhidlərimizdən olan Əli Heydərov orta məktəbi doğma kəndində - Sədərəkdə bitirib. Sonra hərbi xidmətə yollanıb. Onun arzusu polis olmaq idi. Əli səmimi və mehriban xarakteri ilə hər zaman hər kəsin rəğbətini qazanıb.

O, 2020-ci ildə hərbi xidmətə yollanır. Beyləqan rayonunda "N" saylı hərbi hissədə xidmətə başlayır və burada öz şücaəti, nizam-intizamı və vətənpərvərliyi ilə yoldaşlarından fərqlənir. Azərbaycan Silahı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət qulluqçusu olan Əli Heydərov 2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsi zamanı gedən qızğın döyüşlərin iştirakçılarından olur. O, sentyabrın 29-da şəhidlik zirvəsinə yüksəlir. Əli Heydərov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunub.

Onun ən böyük arzusu Vətənin bütövlüyü idi. İndi Qarabağın hər kəndində, şəhərində məhz Əli kimi Şəhidlərimizin qanı, canı bahasına şanlı bayrağımız göylərə yüksəlir, dalğalanır.

**Üçrəngli bayrağımız ucalıqdan enməsin deyə, canından keçən Vətən oğulları: Sizin igidliyiniz əbədiyyən çiçək olub, Vətən torpağında bitəcək, sevgi olub ürəklərdə yaşayacaq...**

**Ruhunuz şad olsun!**

**Hacı Tofiq SEYİDZADƏ**